

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

8 oktyabr 2020-ci il
Cümə axşamı

№ 36 (3501)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## Birliyimizdən bütövlüyümüzə gedən yol Qarabağdan keçir



**Oktayabrın 4-də Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev cəbhədən növbəti şad xəbəri verib:** "Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!"...

Düşmənin hücumlarına qarşı ordumuzun uğurlu əks-hücumlarına, döyüş əməliyyatlarına diqqət çəkən dövlət başçısı bildirib ki, bu gün xalqımızın və dövlətimizin yeni və şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Erməni vandalizminə toxunan Prezident işğaldan azad edilmiş torpaqlarımızda dağıdılmış bütün məscidlərin bərpa olunacağını, saxtalaşdırılan tarixi adların yenidən bərpa ediləcəyini bildirib.

"Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz – Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökürdü. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi. Bu gün Azərbaycan xalqı sevinc içindədir."...

Qaçqın və məcburi köçkün soydaşlarımızın öz dədə-baba torpaqlarına qaytarılacağı günə az qaldığını deyən ölkə başçısı ötən illər ərzində MİNSK qrupunun sədrliyi ilə tərəflər arasında aparılan danışıqların faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxardığını, dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərilmədiyini, bu qətnamələrin 27 ildir ki, kağız üzərində qaldığını, beynəlxalq aləmin bu məsələyə konstruktiv mövqe göstərmədiyini diqqətə çatdırıb.

"Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndəriblər ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi."

Prezident İlham Əliyev qeyd edib ki, indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir.

"İşğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tankları biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!"...

Cəbhədə Ermənistanın düşdüyü durumdan narahatlıq keçirən bəzi dövlətlərin ölkə başçılarının ona zəng vurub məsələnin danışıqlar yolu ilə çözülməsini təklif etməsinə Ali Baş Komandan maraqlı reaksiya sərgiləyib və sözün əsl mənasında həm onların, həm də Ermənistan rəhbərliyinin qarşısına şərt qoyub.

"Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik."...

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Mövlud Çavuşoğlu: "Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur"

**Türkiyə nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:**

-Xoş gəlmisiniz, əziz Mövlud bəy, sizi salamlayıram. Şadam ki, siz gəlmisiniz. Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma bu səfərin xüsusi önəmi var. Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

Mənim əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım, onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir.

Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə biz bu məsələ ilə bağlı dəfələrlə öz sözlərimizi demişik ki, Türkiyə-Azərbaycan birliyi bütün dünya üçün örnək olmalıdır. Bu gün biz real həyatda bunu göstəririk, sübut edirik və bu birliyin gələcəyi, hesab edirəm ki, bölgədə dayanıqlı sülhün təmin edilməsi üçün əsas şərt olacaqdır.

Sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim səmimi salamlarımı hörmətli cənab Prezidentə çatdırasınız.

x x x

**Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu dedi:**

-Sağ olun, cənab Prezidentim. Əvvəlcə, bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Hörmətli Prezidentimiz, qardaşınız Rəcəb Tayyib Ərdoğanın, bütün kabinetimizin, - dünən Nazirlər Kabinetində toplantımız var idi, Türk xalqının Sizə salamlarını və uğur diləklərini gətirmişəm.

Xüsusilə zati-alinizin də vurğuladığı kimi, Türkiyənin, türk xalqının Can Azərbaycana olan dəstəyini bir daha bütün dünyaya göstərmək üçün buraya səfərə gəldim. Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq. Bunu Prezidentimiz Ərdoğan və bizlər hər platformada izah edirik, vurğulayırıq.

Azərbaycanın haqlı mübarizəsini bütün dünyaya çatdırmaq bizim də borcumuzdur. Bunu Ceyhun qardaşımla, xaricdəki bütün səfirliklərimizlə - Azərbaycanın və Türkiyənin səfirlikləri ilə birlikdə həyata keçiririk. Bu gün Sizdən alacağımız təlimatlarla daha böyük güclə bir yerdə çalışmağa davam edəcəyik. Azərbaycanın işğal edilmiş torpaqları artıq azad olunmalıdır. Azərbaycan hüquqi və mənəvi cəhətdən də haqlıdır və bu haqlı mübarizəsini hər yerdə izah edərkən bu mübarizəni də meydanda və masada birlikdə aparmağa, inşallah, davam edəcəyik.

Bu gün Sizin qəbulunuzdan sonra qardaşım Ceyhunla bu məsələlərdə necə birlikdə hərəkət edəcəyimizi dəyərləndirəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirik. Dostluq qrupumuzun sədri Şamil bəylə birlikdə gəldik. İnşallah, bugünkü toplantılarımız Azərbaycanın torpaqlarının azad edilməsi yolunda xeyirlərə səbəb olacaq. Bir daha təşəkkür edirəm, hörmətli Prezidentim.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm.

Bu şəkil doğma Gədəbəyimizin igid övladı Natiqi xatırladtı. Bizə bircə fotosu ilə tanındı Natiq Qasımov. Rus jurnalisti özü də bilmədən Natiq Qasımovun düşmənə əyilməzliyini, qorxmazlığını və cəsarətini tam xırdalığınadək lentə ala bilib. Şəkildə bu oğlan erməni yaraqlılarının müşayiəti ilə bayrağı aparır. Şəkil keçmiş SSRİ-nin ən populyar dərgilərindən olan «Oqonyok» jurnalının 1992-ci il tarixli aprel sayında (№ 14-15) dərc olunmuş Konstantin Smirnovun «Qorxu» sərlövhəli məqaləsindəndir. Yazı italiyalı fotomüxbir Enriko Sarzininin çəkdiyi gördüyünüz bu şəkillə müşayiət olunur. Şəkildə Natiqin ağır döyüşlərdən sonra əlində üçrəngli milli bayrağımız iki saqqallı erməni arasında məğrurcasına addımladığı əks olunub. Ermənilər 5 gün müddətində kilsədə onlarla cəmi bir nəfərin mübarizə apardığını bilib çox pərt olmuşdular.



# BAYRAQ MƏNLİYİMDİR, BAYRAQ KİMLİYİM

## *Raket atılsa belə, bayrağını qoruyan vətəndaş...*



*Natiq Qasımov*

Ermənistan ərazisindən Azərbaycanın Gəncə şəhərinin mülki əhalisinin raket atəşinə tutulması nəticəsində yaranan dağıntılardan çəkilən kadr Rusiya mediasında "Günün fotosu" seçilib.

Rusiyanın məşhur "Dojd" (www.tvrain.ru) media orqanı saytın Ana səhifəsində bu şəkli yerləşdirərək "Günün fotosu" elan edib.

"TASS" agentliyinin fotoqrafı Valeri Şarifulinin müəllifi olduğu bu fotodan görünür ki, Azərbaycan xalqı erməni təxribatından qorxmur, öz torpağını, öz evini, elə bayrağını qoruduğu kimi qoruyur və daim qoruyacaq. Gəncə sakininin Ermənistan terrorçu dövləti tərəfindən raket atəşinə tutulmasından dərhal sonra Azərbaycan bayrağını sinəsinə sıxıb dağıntılar altından çıxarması ictimai müzakirələr zamanı xalqımızın əzmkarlığının, mübarizliyinin simvolu kimi qiymətləndirilib.

Ermənistan dövlətinin öz ərazisindən atdığı uzaq mənzilli raketlər vətəndaşlarımız arasında təşviş yarada bilmir, insanlar bu vəziyyətlərdə belə öz canlarını yox, dövlətini, atributlarını, Vətənini qoruyur. Buna görə də Azərbaycan Ordusu ilə döyüşdə məğlub olan Ermənistanın artilleriya və raket atəşləri ilə xalq arasında çaşqınlıq yaratmaq istəyi puça çıxır.

Bu gün Azərabaycanın arxa cəbhəsində vuruşanlar ön cəbhədəki əsgərlər, zabitlər qədər əzmkar, mübariz və ayıq-sayıqdırlar.

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edib. Paylaşımda deyilir:



"Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!".

# *Dünyanın informasiya məkanında Azərbaycan gerçəklikləri*

**Bu gün təkcə döyüş meydanında deyil, informasiya savaşında da düşmən geri oturdulur, onun yalanları ifşa olunur. Həqiqət günəş kimidir, onu gizlətmək mümkün deyil.**


"Azerbaycan'ın tek koşulu Ermenistan ordusunun geri çekilmesidir. Eğer geri çekilirlerse çatışmalar durur" diye konuştu.

DÜNYA

Giriş Tarihi: 30.09.2020 15:33 Güncelleme Tarihi: 30.09.2020 16:08 ABONE OL Google News

Azerbaycan'ın Ermenistan işgalindeki topraklarını kurtarmak için başlattığı operasyonun üçüncü gününde Cumhurbaşkanı İlham Aliyev'den önemli bir açıklama geldi. Çatışmanın durması için tek şartın olduğunu belirten Aliyev **"Azerbaycan'ın tek koşulu Ermenistan ordusunun geri çekilmesidir. Eğer geri çekilirlerse çatışmalar durur"** ifadelerini kullandı. Başarılı operasyonlarla, stratejik noktaları işgalden kurtardıklarını dile getiren Aliyev, **"Artık bu topraklardan bizi kimse çıkaramaz"** dedi.

SON DAKİKA: CUMHURBAŞKANI ALİYEV:

***Prezident İlham Əliyev bir neçə xarici KİV-lərə "Pervıy Kanal" televiziyasına, "Əl-Ərəbiyə" və "TRT Haber" televiziya kanallarına müsahibə verib.***

*****

***Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının*** internet səhifəsində "Azərbaycan lideri atəşkəsdən əvvəl Ermənistanın geri çəkilməsini və üzr istəməsini tələb edir" başlıqlı məqalə yerləşdirilib.

Dağlıq Qarabağın Azərbaycanın qanuni ərazisi olduğunu qeyd edən CGTN Azərbaycan Prezidentinin "Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!" fikrinə də yer verib.

*****

***Gürcüstanın eport.ge, interpressnews.ge, 24news.ge, dalgatv.ge, aktual.ge*** və digər informasiya portalları, televiziya kanalları Azərbaycan, rus, ingilis və gürcü dillərində cəbhədə baş verən hadisələr barədə oxuculara ətraflı məlumatlar çatdırırlar.

*****

***Böyük Britaniyanın "The London Post" portalı və Misir mətbuatı*** Ermənistanın təcavüzünə geniş yer ayırıb. Təcavüzlə bağlı xalqa müraciət ünvanlayan Prezident İlham Əliyevin çıxışından sitatlar yayımlanıb.

*****

***"The Washington Post"*** nəşri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə zonasından kənarda yerləşən şəhərlərinə raket zərbələri haqda yazıb.


АЗЕРБАЙДЖАН
УЗБЕКИСТАН
КЫРГЫЗСТАН
КАЗАХСТАН
ТУРЦИЯ
ТУРКМЕНИСТАН
БИБЛИОТЕКА

Вражеский артобстрел древней Гянджи не может напугать мирных жителей – армянский вандализм в фотографиях АЗЕРТАДЖ

Избрание мишенью домов мирного населения и исторических памятников Азербайджана при артиллерийском обстреле неприятелем города Гянджа с территории Армении является доказательством варварства. Международные организации, страны-сопредседатели Минской группы, государства мира не должны закрывать глаза на этот акт вандализма. Хотя враг и попытался напугать население Гянджи артобстрелом, у него это не получится. Каждый гянджинец готов броситься в бой с оружием в руках для восстановления территориальной целостности своей страны.

Об этом региональному корреспонденту АЗЕРТАДЖ сказали жители Гянджи Сурхай Джафаров, Алескер Искендеров и Турал Ибрагимов.

Отметив, что утром они услышали мощный взрыв со стороны проспекта Азиза Алиева, собеседники сообщили, что сразу же направились на указанную территорию, где стали свидетелями артобстрела жилых домов, исторических построек.

Сурхай Джафаров говорит: «Подвергнув обстрелу Гянджу, армянские военные продемонстрировали свое отчаяние. Они прибегли к такой грязной провокации потому, что боятся встретиться лицом к лицу с азербайджанским солдатом. А гянджинцы верят в свою армию, в Верховного главнокомандующего, всегда рядом с ними».

НОВОСТНАЯ ЛЕНТА

Азербайджанская армия не испытывает никаких проблем с запасами крови
5 октября 2020

Посол заявил на известном украинском телеканале: Конечная цель Азербайджана —
5 октября 2020

Территория Азербайджана подверглась ракетному обстрелу из Армении
5 октября 2020

Министерство обороны Азербайджана: вооруженные силы Армении обстреливают
5 октября 2020

Президент Ильхам Алиев дал интервью турецкому телеканалу «TRT Haber» БУДЕТ
5 октября 2020

Azərbaycanın ikinci böyük şəhəri Gəncə və Dağlıq Qarabağ regionuna yaxın olan şəhərlər Ermənistan tərəfindən raket hücumuna məruz qalıb.

Bu barədə oktyabrın 4-də İndoneziyanın ***ANTARA*** dövlət informasiya agentliyi və nüfuzlu ***"Republika.co.id"*** portalı məlumat yayıb.

*****

***JIJI PRESS:*** "Ermənistanın Azərbaycanın ikinci şəhərinə hücumu müharibənin genişlənməsinə səbəb ola bilər"

Bu barədə Yaponiyanın nüfuzlu "JIJI RESS" agentliyi və NHK telekanalı məlumat yayıb. Məlumatlarda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə istinadla hücum nəticəsində bir nəfərin həlak olduğu və bir beçə nəfərin yaralandığı qeyd edilib. Vurğulanıb ki, Gəncə şəhərinin Ermənistan ordusu tərəfindən bombardman edilməsi Dağlıq Qarabağ uğrunda münaqişənin genişlənməsi məqsədi daşıyır.

Bununla yanaşı, məlumatlarda Ermənistan ordusunun Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən digər şəhərlərini də ağır artilleriyadan və raketlərdən atəşə tutduğu aksini tapıb.


AUSTRALIAN-AZERBAIJANI-TURKISH FRIENDSHIP

Azerbaijan–Australia relations | Visit Azerbaijan | Azerbaijani visa | Photo gallery | Recent News | About us | Contact us

Armenian shelling kills five members of a family in Azerbaijan

# Cəbhədən gəlirik, QƏLƏBƏ SORAĞI İLƏ



**Cəbhə bölgəsinə ezam olunan DİN Mətbuat Xidmətinin əməkdaşları düşmən qoşunlarının mütəmadi olaraq artilleriya atəşinə tutduğu Tərtər, Ağdam, Füzuli, Ağcabədi və Beyləqan şəhərlərində olublar.**

Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərdə polisin, eləcə də DİN Daxili Qoşunlarının hərbi qulluqçularının gecəli-gündüzlü ayıq-sayıq xidmətini fotoaparatın və kameranın yaddaşına həkk edən əməkdaşlarımız həmin rayon sakinlərinin də ordumuzun qələbələrindən böyük fərəh hissi keçirdiyinə şahidlik ediblər.




Sakinlər atılan mərmilərin onları qorxutmadığını bildiriblər: ***"Ordumuz qarşısında duruş gətirə bilməyən düşmənin mülki şəxsləri atəşə tutması birinci hal deyil. Bu, onların namərd xislətindən irəli gəlir. Torpaqlarımızın işğaldan azad ediləcəyi gün isə uzaqda deyil. Bu gün Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" şüarı düşmənin başında bomba kimi partlayır. Qələbə də, Qarabağ da bizimdir, bizim olacaq!...***

*fotolar Zeyni Hüseynovundur*



# ŞİRİN CANDAN KEÇƏNLƏR...

**Sentyabrın 27-də Ermənistan hərbi birləşmələrinin hücumunun qarşısını alaraq əks-hücuma keçən Azərbaycan Ordusu ard-arda inamlı qələbələr qazanır.**








Müqaviməti qırılan düşmən qüvvələrində hökm sürən pərakəndəlik, başıpozuqluq onların məhvi ilə nəticələnir. Həm canlı qüvvə, həm də çoxlu sayda döyüş texnikasını itirən Ermənistanın və qondarma "DQR"-nın gücü tükəndiyindən onlar namərd xislətlərinə yenə də sadiq qalaraq mülki əhalini, cəbhədən uzaq yaşayış məntəqələrini atəşə tuturlar. Azərbaycanın torpaqlarının işğaldan azad edilməsi üçün göstərdiyi qətiyyətlə bərabər, ordunun idarə edilməsi, arxa cəbhədə güclü təşkilatçılıq qələbəni qaçılmaz edir.

Ölkəmizdə komendant saatının tətbiq edilməsi və nəzarətin Daxili İşlər Nazirliyinə həvaləsi polisin, eləcə də DİN Daxili Qoşunlarının üzərinə daha böyük məsuliyyət qoydu. Çünki söhbət həm də Vətənin təhlükəsizliyindən, ərazi bütövlüyünün bərpasından gedir...

Arxa cəbhədəki bütövlük, inam ön cəbhədə döyüşən əsgərimizin əzmlə irəliləməsinə zəmin yaradır. Torpaqlarımızın hər qarışının azad edilməsi uğrunda qızğın döyüşlər gedir. Döyüş itkisiz olmur, şəhidlərimiz var. Hərb tariximizdə öz yeri olan DİN Daxili Qoşunlarının şəxsi heyəti də bu haqq müharibəsində igidlik və rəşadət göstərir. Uğurlarımıza sevinirik, itkilərimizə isə kədərlənirik. Vətən uğrunda döyüşlərdə DQ-nin hərbi qulluqçuları da şəhidlik zirvəsinə ucaldılar.

**Həsən Abdullayev (Biləsuvar), Elnur Bağırov (Cəlilabad), Sərxan Abdullayev (Qazax), Ruslan Qurbanov(Biləsuvar), Tural Abdullayev (Sabunçu rayonu) və Mais Səmədov (Xaçmaz rayonu)** adlarını Azərbaycan Tarixinə yazdılar.

İyirmi səkkiz illik döyüş və xidmət yolu keçmiş DİN Daxili Qoşunları şəxsi heyəti dünən olduğu kimi, bu gün də üzərinə düşən görəvi inamla icra edir. Onlar döyüş ruhu ilə Qələbə uğrunda düşməni məhv etməyə hər an hazırdırlar.

***Ruslan Vəliyev,***
***polis leytenantı***

# Qarabağ qan ağla(yır)mır

## *Haqq savaşında zəfər bizimdir*

**Döyüşlər davam edir. Müzəffər Azərbaycan Ordusu bizi illərlə həsrətində olduğumuz böyük Qələbəyə doğru addım-addım yaxınlaşdırır. Bəli, məhz böyük Qələbəyə doğru. Bu böyük Qələbənin ilk işartıları artıq göz önündədir. İgid oğullarımız Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü, həm də ən ali dəyərlərdən olan ədalət uğrunda savaşırlar.**

Cənab İlham Əliyev bəyan etmişdi ki, Ermənistan ordusu Azərbaycan torpaqlarından qeyd-şərtsiz, tam və dərhal çıxmalıdır. Yalnız bu halda döyüşlər dayanacaq, qan tökülməyəcək, bölgəyə sülh gələcək. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

Unutmayaq, düşmən hiyləgərdi. Erməni həmin ermənidi.

XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri olmuş Xosrov bəy Sultanovun qardaşı, xalq qəhrəmanı Sultan bəyin başçılıq etdiyi könüllülər, partizan dəstələri Zəngəzurun yuxarı hissəsini odlara qalayan, dinc əhalini məhv edən general Andronik Ozanyanın seçmə qoşun hissələrini Laçının Zabux dərəsində mühasirəyə alıb qırmış, strateji əhəmiyyətli yüksəklikləri azad edərək möhkəmlənmişdi.

Sonra nə oldu? Çox təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Zəngəzur qəzasına göndərdiyi qoşunların rəhbərliyindəki erməni əsilli xəyanətkar zabitlər Baş qərargahda hazırlanmış planı – "Zəngəzur əməliyyatı"nı 200 min rubla ermənilərə sataraq qazanılmış qələbələri heçə endirmiş, qoşunu acı məğlubiyyətə uğratmışdı.

Bu azmış kimi, həmin məğlubiyyətdən sonra Zəngəzur qəzasının aşağı hissəsində-Qafan bölgəsinə bağlı olan Oxçu kəndində tariximizin ən faciəli günlərindən biri yaşanmışdı. Qaniçən erməni başçılarından biri kimi məşhur olan Hamazasp 240 silahlı quldurla kəndi mühasirəyə aldırmış, uşaqdan-böyüyə hamını son nəfərədək öldürtmüşdü. Vəhşiliyin dərəcəsinə baxın ki, bu qaniçən erməni hətta bölgənin Ermənistana birləşdirilməsi əleyhinə çıxan ağsaqqalların, din xadimlərinin əl-ayaqlarını bağlatdıraraq erməni zabitlərinin ayaqları altında başlarını kəsdirmişdi.

Bunların hamısı, yuxarıda qeyd etdiyim kimi, ötən əsrin əvvəllərində baş vermiş hadisələrdi. Əsrin sonlarında isə...

Ermənilərin paytaxt Bakıda törətdikləri terror aktı... Sumqayıt hadisələri... 1991-ci ildə içərisində ali rəhbərlərin olduğu vertolyotun Xocavənd rayonunun Qarakənd səmasında vurulması... Xocalı vəhşiliyi... Yox, danışmayaq Xocalı soyqırımından. İndi az qala bağçaya gedən uşaqlar da məlumatlıdırlar bu barədə. Mən hələ dünya ictimaiyyətini demirəm. Ardınca Qarabağımızın incisi, başımızın tacı olan Şuşanın işğalı...




Doğulub-böyüdüyüm, igidlər diyarı Laçının məkrli düşmənin murdar caynağına keçməsi... Zəngilanın, Qubadlının, Cəbrayılın, Füzulinin, Ağdamın, Kəlbəcərin itirilməsi...

Təbii ki, biz o müqəddəs torpaqlarımızı murdar ermənilərə bağışlamamışdıq. Döyüşə-döyüşə çıxmışdıq yurd yerlərimizdən. Təkcə mənim böyüdüyüm Laçının Alxaslı kəndindən biri dayım oğlu Qasım olmaqla 21-24 yaş arasında olan 9 həmkəndlim son damla qanlarınadək vuruşaraq şəhidlik zirvəsinə ucaldılar. Laçın polisinin 42 əməkdaşı torpaqlarımız uğrunda gedən döyüşlərdə əbədiyyətə qovuşdu.

Acımızın, nisgilimizin yaşı bir qərinəni haqlasa da bir an belə unutmadıq müqəddəs yurd yerlərimizi, qanı torpaq olan Vətən oğullarını.

Təqdim etdiyim bu fotoşəkil də elə paqon yoldaşımız, Ağdamın "Fərrux dağı"nda erməni snayperi tərəfindən xaincəsinə vurulmuş Azərbaycanın ilk Milli Qəhrəmanlarından olan Elşad Hüseynovun xatirə gecəsində çəkilmişdir. Yeri gəlmişkən, müqəddəs yurd yerlərimiz uğrunda savaşlarda şanlı Azərbaycan Polisinin, onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların 1000 nəfərə yaxın əməkdaşı, hərbi qulluqçusu şəhid olmuşdur...

27 sentyabrdan başlayan əks-hücum Azərbaycan xalqının, Azərbaycan Dövlətinin, rəşadətli Ordumuzun, qətiyyətli və cəsarətli Ali Baş Komandanımızın güc, qüvvət və hərbi-siyasi iradəsinin göstəricisidir. Bu gün Xalq – Ali Baş Komandan və Ordu birliyi var. Bu birlik artıq öz sözünü deməkdədir. Bu gün Qan Bankının qarşısında könüllü olaraq qan vermək istəyən, səfərbərlik idarələrinin qarşısında könüllü olaraq döyüşlərə qatılmaq istəyən minlərlə vətənpərvər var.

Bir neçə gün öncə cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətini, "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibəni dinlədik, "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramındakı çıxışına qulaq asdıq. Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunmuş bu verilişdə Prezidentimizin suallara verdiyi cavablar hər bir azərbaycanlı kimi mənim də qəlbimi fəxarət və qürur hissi ilə doldurdu. Qəribədir ki, bu proqramın əsas redaktorları milliyətcə ermənilərdir. Çox güman ki, onlar da Rusiyanın "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkonun bu müsahibəyə verdiyi dəyərləndirmədən sonra cır səsli, fikri dağınıq erməni Paşinyan kimi rəzil günə düşdülər. Baş redaktorun verdiyi qiymətləndirmə həqiqətin çoxmilyonluq rusdilli auditoriyaya çatdırılması baxımından da bənzərsiz effekt verdi: "Mən Azərbaycan və Ermənistan liderlərinin çıxışlarını diqqətlə dinlədim. İlham Əliyev şərtsiz olaraq dəqiq, tamamilə məntiqli, düzgün və ardıcıl çıxış etdi. Bu, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu məktəbidir. Bu məktəb doğrudan da böyük kadrlar yetişdirir. Prezident Əliyev haqlıdır..."

Qarabağımız indi qan ağlamır. Əksinə, qollarını geniş açıb məcburi köçkün düşmüş yüz minlərlə sakinini qucaqlamağa, bağrına basmağa hazırlaşır. Biz qürur və sevinc içərisində yaşamağa layiqik. Biz, ölkə rəhbərimizin təbirincə desək, təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

Eşq olsun, şanlı Azərbaycan Ordusuna!

***Keçdi əks-hücuma şanlı ordumuz,***
***Qələbə gözləyir doğma yurdumuz,***
***Gedirik irəli, gəlir ardımız,***
***Düşmənin dilinin ucunda vida,***
***Qarabağ bizimdir, bizim və nida!***

***Yox olmuş yox olub yoxa çıxacaq,***
***Bayrağım yeriyib dağa çıxacaq,***
***Laçına çıxacaq, Tuğa çıxacaq,***
***Həsrətdən güc aldıq, sevgidən qida,***
***Qarabağ bizimdir, bizim və nida!***

***Ey dağım, ey daşım, bizə səngər ol!***
***Ey dostum, qardaşım, zabit, əsgər ol!***
***Canını dişində tutub Əjdər Ol,***
***Əsgər marşı ilə yeriyir o da...***
***Qarabağ bizimdir, bizim və nida!***

**Rahib Qarayev,**
**Şəxsi Heyətlə İş İdarəsinin rəisi,**
**polis polkovniki**

# Çağırıb aparın cəbhəyə məni

***Göstərib yağıya əsgər yerini,***
***Axır ki, silaha sarıldı, şükür!***
***Ali Baş Komandan verdi əmrini***
***Neçə düşmən bağrı yarıldı, şükür!***

***Var-dövlət duyğusu qəlbimə axmır,***
***Daha ləl görəndə, inci görəndə.***
***Ürəyim sevincdən sinəmə sığmır,***
***Cəbhəyə yollanan gənci görəndə.***

***Düşmənin arzusu gözündə sönüb,***
***Aparar sonadək hər mərd savaşı.***
***Hamının qəlbində bayrama dönüb,***
***Bu Vətən savaşı, bu Yurd savaşı.***

***Gülləni yağıya sıxan adamam,***
***Qovmuşam yolumdan dumanı, çəni.***
***Mən oddan, alovdan çıxan adamam,***
***Görmüşəm döyüşü, müharibəni.***

***Sözümü hər yerdə deyən diləm mən,***
***Bitməz yad kəlməsi dilimin üstə.***
***Şükür ki, azadam, müstəqiləm mən,***
***Kimdi əlin qoyan əlimin üstə?***

***Yenə ön sırada yenə başdayam,***
***Oğul istəyirəm bir əyə məni.***
***Nə olsun yaşlıyam, ahıl yaşdayam.***
***Çağırıb aparın cəbhəyə məni.***

***Şəhid anasının göydədir ahı,***
***Yaraşmır heç kəsə gülmək, ey Vətən!***
***Səslər hər igidi tanrı dərgahı,***
***Şərəfdir səngərdə ölmək, ey Vətən!***

***Yer yox nə şöhrətə, nədə ki, ada.***
***Qarabağ təpəri ürəyin, canın.***
***Heykəli qoyular, kimsə Şuşada,***
***Sancsa bayrağını Azərbaycanın!***

**Fəxrəddin Teyyub,**
**təqaüddə olan polis polkovniki**

# Sirrimizi düşmənə verməyək

**Son günlər daxil olan məlumatlara əsasən, cəbhəboyu zonada vəziyyət haqqında bəzi şəxslər, xüsusilə də sosial media və digər rəqəmsal platforma istifadəçiləri tərəfindən hərbi-siyasi və əməliyyat şəraiti, qoşunların dislokasiyası, hərbi texnika və onun hərəkəti, silah-sursat, habelə dövlət təhlükəsizliyinə xələl gətirən digər məlumatların yayılması halları müşahidə edilir.**

DİN əhalinin nəzərinə çatdırır ki, "Dövlət sirri haqqında" 2004-cü il 7 sentyabr tarixli Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" 2014-cü il 24 sentyabr tarixli Sərəncamına uyğun olaraq qanunla qadağan olunmuş məlumatların yayılmasına görə müvafiq məsuliyyət nəzərdə tutulur.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri, hərbi obyektlər, onların təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətinin sayı barədə fotoşəkillər, audio-video materiallar və digər informasiyalar yayan şəxslər barədə qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görüləcəkdir.

Hazırda ordumuzun uğurlu hərbi əməliyyatlar apardığı, düşmənə sarsıdıcı zərbələr endirdiyi və ərazilərimizi işğaldan azad etdiyi bir dövrdə hər kəsi vətəndaş məsuliyyətini dərindən dərk etməyə, ayıq-sayıq olmağa, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə və cəbhədə əməliyyat şəraitinə xələl gətirə biləcək addımlardan çəkinməyə çağırırıq.

# POLİSİN ƏSGƏR ÖVLADI

**XX əsrdə itirdiklərimizi XXI əsrdə geri qaytarırıq. Xankəndində xarici jurnalistlərə qorxu içində müsahibə verən ermənin dediyi kimi: "İndi 1992-ci il deyil. Azərbaycan çox güclüdür. Burda qalmaq isə təhlükəlidir, hətta ölümə bərabərdir. Onlar gec-tez bura gələcəklər".**



XXI əsrdə erməni etirafı...

Biz Qarabağa doğru gedirik, çünki onu xilas etməyin vaxtı çatıb. Zaman xeyrimizə işləyir və bu haqq savaşı Qələbə ilə bitməlidir. Şuşanın hər qayasından Azərbaycan bayrağı asılmalıdır. Murovun illərdir ki, qəzəbindən buz tutmuş zirvələrini Azərbaycan Əsgəri isti nəfəsi ilə isitdikcə şəhid qanıyla sulanmış torpaq cana gəlir.

"Biz birlikdə güclüyük", "Qarabağ Azərbaycandır"! şüarı sərhədlərimizi aşıb. Dünya Azərbaycanlıları da o müqəddəs günü gözləyirlər.

Bu gün hər şey cəbhə üçündür və bu gün hər birimiz ön cəbhədəyik. Ürəyimiz cəbhə ilə bir döyünür. Azərbaycan Polisi də bu çətin və sınaq dolu günlərdə paytaxtda olduğu kimi cəbhə bölgəsində və ona yaxın ərazilərdə ayıq-sayıq xidmət aparır.

Və bu gün cəbhədə polis övladları da döyüşür. Atalarının yarım qalmış haqq davasını polisin əsgər övladları davam etdirib düşmənə göz açmağa imkan vermirlər.

Bəlkə də özləri xəbər tutsalar adlarının çəkilməsinə, yazılmasına razılıq verməzdilər. Öyrəndik ki, Bakı Şəhər DYP-nin İctimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədovun oğlu könüllü olaraq cəbhəyə yollanıb. NBPİ Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Zöhrab Mayılovun oğlu ön cəbhədə hərbi həkimdir. DİN BMİ-nin Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayının əməkdaşı polis mayoru, Nurağa Qurbanovun oğlu Murov dağında Vətəni qoruyur. Həmin alayın əməkdaşı Cavid Rəhimovun oğlu da ön cəbhədədir. DİN Polis Akademiyasının əməkdaşı polis polkovnik-leytenantı Şahin Şükürovun oğlu da cəbhə bölgəsindədir və tezliklə biz bu mübariz, mərd oğullarımızdan qələbə xəbərini gözləyirik.

Allah sizləri qorusun, Vətən övladları!

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

---

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında Sabirabad rayonu ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Cəngan kənd sakini E. Muradov saxlanılmışdır. Şəxsi axtarış zamanı üzərindən 29 qramdan artıq, evindən isə 7 kiloqram 245 qram marixuana aşkar edilərək götürülmüşdür.




*****

***Oktyabrın 4-də saat 21 radələrində Bakı şəhər sakini E.Mirzəyevin idarə etdiyi "Mercedes" markalı avtomobil Abşeron rayonu ərazisində qurulmuş komendant postunda saxlanılmışdır.***

***Polis əməkdaşları tərəfindən avtomobilə baxış zamanı oradan "Ata-arms" markalı tüfəng aşkar edilərək götürülmüşdür.***

***Faktla bağlı Abşeron Rayon Polis İdarəsində araşdırma aparılır.***

*****

Narkotik vasitə ilə tutulmuş F.İbrahimovun ətrafında **Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsinin** əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun və 3 qardaşının evində narkotik vasitə saxlamaları da müəyyən edilmişdir. Əməliyyat-axtarış tədbirləri ilə onun qardaşı Xəlilin evindən 89 qrama yaxın metamfetamin, Rəsulun evindən 805 qramdan artıq heroin, Vidadinin evindən isə 235 qramdan artıq tiryək və 580 qram marixuana aşkar edilərək götürülmüşdür.

*Natiq Cavadov*

---



# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan"Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |



---

# "NEVİDİMKA" TUTULDU...

**"Azərbaycan Polisi vətəndaşların müraciətlərinə həssaslıqla yanaşır, operativ reaksiya verir, üzləşdikləri problemlərin həll olunmasında köməklik göstərir. Çünki bu bizim həm vəzifə borcumuz, həm də qarşımızda qoyulan tələblərdir."**

Bu fikirləri Səbail RPİ 9-cu Polis Bölməsinin rəisi, polis kapitanı İlqar Qafarov söhbət əsnasında söylədi.

Əmin-amanlığın, ictimai sabitliyin qorunub saxlanılması və vətəndaş məmnunluğunu təmin etmək üçün gecəli-gündüzlü xidmətdədirlər. Günün istənilən saatında polisin qapısı hər kəsin üzünə açıqdır. DİN-ə ünvanlanan təşəkkür məktublarında da bölmənin fəaliyyətindən razılıq hissi ifadə olunur.




Bu günlərdə Polis Bölməsinə rayon ərazisindəki evlərin birindən 10 min manat, 10 min ABŞ dolları və 10 min avro oğurlanması barədə məlumat daxil olub. Bölmə rəisi, polis kapitanı İ.Qafarov işi nəzarətə götürüb və dərhal təcrübəli əməkdaşlardan-baş əməliyyat müvəkkili, polis mayoru Ehtiram Hacıyev və əməliyyat müvəkkili, polis baş leytenantı Elvin Hümbətovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb. Onlar mənzildən küllü miqdarda pulu oğurlayan Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş Kəmaləddin Talıbovu Şabran rayonunda saxlayıblar.

Araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb. Bəlli olub ki, Kəmaləddin əsl "peşəkar"dır. O, ev sahibləri mənzildəykən səssizcə evə daxil olub, pulları oğurlayıb və gözəgörünmədən aradan çıxırmış. Elə "Nevidimka" ləqəbini də buna görə alıb. Bu dəfə də eyni üsulla digər evə daxil olub. Evdəki seyfi qaraja apararaq balta ilə sındırsa da işini o qədər asta və "usta" tutub ki, eşidən, duyan olmayıb...

Ancaq asayiş keşikçilərinin çevikliyi sayəsində "Nevidimka" "qənimətinin" dadını çıxara bilməyib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

---

# Sentyabr ayının 30-dan oktyabrın 6-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 129 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 47 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 78, o cümlədən borclu şəxs qismində axtarışda olan 42 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 11 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 79 fakt müəyyən edilmişdir.

---

# MARAQ DÜNYASI



### YARIM MİLYON DOLLARA SATILDI

Britaniya sakininin çardaqdan tapdığı, Çin imperatoru Syan-lunun hakimiyyəti dövrünə aid köhnə çaynik hərracda 495 min dollara satılıb.

Çaynikin keçmiş sahibi babasının əşyanı Birinci Dünya müharibəsi zamanı Böyük Britaniyaya Asiyadan gətirdiyini bildirib. O etiraf edib ki, əvvəlcə çayniki antik əşyalar dükanına satmaq istəyib, lakin sonra ekspertlə məsləhətləşmək qərarına gəlib.

Lotun start qiyməti təxminən 50 min dollar olub. Lakin səkkiz nəfərin qiyməti dayanmadan artırması səbəbindən çaynik bundan on dəfə baha satılıb. Onu hərracın Londondan olan anonim iştirakçısı alıb.

### YAŞLILARIN SAYI DÜNYA ÜZRƏ REKORD SƏVİYYƏYƏ ÇATIB

Yaponiya Ümummilli Məsələlər, Yerli Muxtariyyət və Rabitə Nazirliyinin yaydığı məlumata görə, bu ölkədə yaşlı əhalinin sayı rekord səviyyəyə çatıb.

Bildirilib ki, cari il sentyabrın 15-nə olan son məlumata görə, Yaponiyada 65 və daha yuxarı yaşlı insanların sayı 36 milyon 170 min nəfərə bərabərdir. Bu rəqəm ötənilki göstəricini 300 min nəfər üstələyib.

Ölkə əhalisinin tərkibində yaşlı insanların ümumi payı isə 28,7 faiz təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,3 faiz çoxdur. Həmin rəqəmin artmasına ölkə üzrə əhalinin ildə təqribən 290 min nəfər azalmasının təsir etdiyi də bildirilib.

### UÇAN MƏİŞƏT VİDEOMÜŞAHİDƏ KAMERASI



Amazon kompaniyası pilotsuz rejimdə çalışan Always Home Cam məişət kamerasını təqdim edib.

Kamera əsas rejimdə dok-stansiyaya qoşulmuş vəziyyətdə müşahidə aparır. Amma əgər onun sahibi, məsələn, mətbəxdə peçin söndürüldüyünə əmin olmaq istəyirsə, dron rejimini işə salır. Kamera dok-stansiyadan ayrılır və məsafədən idarə olunaraq marşrut üzrə hərəkətə başlayır.

Dron rejimi, həmçinin işə düşən siqnalizasiyaya qoşulur. Bu halda istifadəçinin smartfonuna xəbərdarlıq gəlir və kamera internetə qoşuludursa, binadan, yaxud evdən canlı videoyayım həyata keçirir.

Kameranın dron rejimində olması insanlar və ev heyvanları üçün tam təhlükəsizdir. Səsini isə bilərəkdən güclü ediblər ki, ətrafdakılar onun yaxınlaşmasını duya bilsinlər.

*Hazırladı: Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:00
Qiyməti 40 qəpik
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.